## Azərbaycan Milli Elmlər Akademiyasının

# N İ Z A M N A M Ə S İ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Milli Elmlər Akademiyası (bundan sonra – Akademiya) Azərbaycan Respublikasının elm sahəsində dövlət siyasətini həyata keçirən dövlət ali elmi təşkilatıdır. Akademiya Azərbaycan SSR Elmlər Akademiyasının hüquqi varisidir.

1.2. Akademiya qeyri-kommersiya qurumu olan hüquqi şəxsdir.

1.3. Akademiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Nizamnaməni rəhbər tutur.

1.4. Akademiya öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən tabeliyində olan qurumlar, dövlət, yerli özünüidarəetmə orqanları, yerli və xarici təşkilatlar, ictimai və beynəlxalq qurumlar və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət göstərir.

1.5. Akademiya onun tərkibinə seçilən Akademiya üzvlərini – həqiqi, müxbir, xarici və fəxri üzvləri, Akademiyanın regional elmi bölmə və mərkəzlərində, elmi, elmi xidmət, xidmət, təhsil və sosial xidmət müəssisələrində işləyən elmi işçiləri, mütəxəssisləri və digər işçiləri birləşdirir.

1.6. Akademiyanın müstəqil balansı, xəzinə və bank hesabları, istifadəsində olan dövlət əmlakı, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, rəsmi emblemi, bayrağı, ştamp və blankları vardır.

1.7. Akademiyanın bayrağının təsviri və istifadəsi qaydaları "Azərbaycan Milli Elmlər Akademiyasının bayrağı haqqında Əsasnamə" ilə müəyyən edilir.

1.8. Akademiyanın saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti və bu Nizamnamədə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.9. Akademiya Azərbaycan Respublikasında elmi işçilərin, o cümlədən gənc alimlərin sosial müdafiəsini gücləndirmək məqsədi ilə, elmin maliyyələşdirilməsinə dövlət büdcəsinin resursları ilə yanaşı, bu Nizamnamədə nəzərdə tutulmuş digər mənbələrdən əldə edilən vəsaitləri cəlb edir.

1.10. Akademiya məqsədlərinə nail olmaq və əməkdaşlarının sosial-məişət şəraitini yaxşılaşdırmaq üçün elmin ayrı-ayrı sahələrində əldə etdiyi nailiyyətləri və innovativ yenilikləri istehsalatın müxtəlif sahələrində təcrübədə tətbiq etməklə sahibkarlıq subyektlərini təsis edir.

1.11. Akademiya istifadəsində olan dövlət əmlakının saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi, habelə öz öhdəlikləri üçün məsuliyyət daşıyır.

1.12. Akademiyanın Rəyasət Heyəti Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 30 ünvanında yerləşir.

## 2. Akademiyanın fəaliyyətinin məqsədi və istiqamətləri

2.1. Təbiət, cəmiyyət və insan haqqında yeni biliklər əldə etməklə, Azərbaycan Respublikasının iqtisadi, sosial və mədəni-

mənəvi inkişafına xidmət göstərmək Akademiyanın fəaliyyətinin əsas məqsədidir.

2.2. Akademiyanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. Azərbaycan Respublikasında elmi fəaliyyəti təşkil və elmin inkişafını təmin etmək, elmin müxtəlif sahələri üzrə elmi tədqiqat işlərini aparmaq və elmi maarifləndirməni həyata keçirmək;

2.2.2. Azərbaycan Respublikasında bütün elmi təşkilatların və ali təhsil müəssisələrinin elmi tədqiqat fəaliyyətini əlaqələndirmək və istiqamətləndirmək, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirmək;

2.2.3. Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil etmək;

2.2.4. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Akademiyanın səlahiyyətinə aid olan elmi məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

2.2.5. elmin inkişafını yerli xüsusiyyətlər və qlobal meyllər nəzərə alınmaqla prioritetləşdirmək və mütərəqqi dünya elminə səmərəli inteqrasiya prosesini davam etdirmək;

2.2.6. elmi infrastrukturun təkmilləşdirilməsini, elmin maddi-texniki bazasının müasirləşdirilməsini və bu sahədə informasiya təminatı sistemlərinin elektron formaya keçirilməsini təmin etmək;

2.2.7. ölkədə innovativ iqtisadiyyatın yaradılması məqsədi ilə elm və istehsalat arasındakı əlaqələri gücləndirmək, tətbiqi elmi araşdırmaların bazarın tələbatına müvafiq aparılması üçün zəruri mexanizmləri yaratmaq;

2.2.8. innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizm-

lərin qurulması, innovasiya potensialının səmərəli istifadəsi və inkişafının təmin edilməsi məqsədi ilə tədbirlər həyata keçirmək;

2.2.9. innovativ sahibkarlıq və onunla bağlı və yeni fəaliyyət növlərinin inkişafı üçün əlverişli mühitin yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlər həyata keçirmək, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparklar, innovasiya zonaları, inkubasiya xidmətləri, texnologiya transferi mərkəzlərinin təşkili barədə təkliflər vermək;

2.2.10. qabaqcıl dünya təcrübəsindən istifadə etməklə, informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq, Azərbaycanda yeni bilik və texnologiyaların istifadəsini, mənimsənilməsini və yayılmasını təmin edən innovasiya sistemini formalaşdırmaq.

## 3. Akademiyanın vəzifələri

3.0. Akademiya bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. elm sahəsində islahatların aparılmasını təmin edir, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, dövlət proqramlarının hazırlanmasında iştirak edir və onların yerinə yetirilməsi üçün tədbirlər görür;

3.0.2. elmin müxtəlif sahələrində elmi tədqiqat işlərinin aparılmasını təşkil edir;

3.0.3. Azərbaycan Respublikasında elm sahələrinin prioritet istiqamətlər üzrə inkişafını təmin edir;

3.0.4. fundamental və tətbiqi elmi tədqiqatların təşkilini, əlaqələndirilməsini, inkişafını təmin edir və onların ayrı-ayrı sahələrə tətbiqində iştirak edir;

3.0.5. elmi-texniki inkişafın strategiyasının və prioritet istiqamətlərinin müəyyənləşdirilməsində iştirak edir;

3.0.6. elmtutumlu təsərrüfat subyektlərinin yaradılmasına dair təkliflər hazırlayır, qərarlar qəbul edir, elmi-istehsalat yönlü təcrübə-sınaq zavodları, müxtəlif yönlü təsərrüfat müəssisələri yaradır və elmlə istehsalatın qarşılıqlı əlaqələrini təşkil edir;

3.0.7. Azərbaycanda elmi-texniki potensialı qoruyur və inkişaf etdirir, iqtisadiyyatın gücləndirilməsində, xalqın mənəviyyatının və mədəniyyətinin zənginləşdirilməsində, əhalinin sağlamlığının qorunmasında bu potensialdan səmərəli istifadə edir, mühüm sosial problemlərin həllində elmin və texnikanın rolunu yüksəldir, dövlətin informasiya ehtiyatlarını artırır;

3.0.8. Azərbaycan mədəniyyətinin, adət-ənənələrinin qorunmasına yönəlmiş elmi tədqiqatları təşkil edir və həyata keçirir;

3.0.9. elmlə təhsilin əlaqələrini möhkəmləndirir;

3.0.10. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, elmi məsələlərlə bağlı beynəlxalq münasibətlərdə Azərbaycan Respublikasını təmsil edir;

3.0.11. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, beynəlxalq elmi və elmi-texniki əməkdaşlığın təşkilində və həyata keçirilməsində iştirak edir;

3.0.12. əqli mülkiyyət hüquqlarının qorunmasına və həyata keçirilməsinə yardım edir;

3.0.13. elmin nailiyyətlərinə əsaslanan yüksək texnologiyalı istehsalat sahələrinin və müəssisələrinin yaradılmasına kömək edir;

3.0.14. aparılan elmi tədqiqat işlərinin proqramlarını daim yeniləməklə, onları fundamental elmin və müasir dünya elminin, texnikasının və texnologiyalarının prioritet inkişaf istiqamətlərinə uyğun tərtib edir, elmi işləri məqsədyönlü təşkil edir, elmi tədqiqatların və innovasiya siyasətinin səmərəsini artırır;

3.0.15. elmi tədqiqatların kompleks problem mövzular üzrə aparılmasını təşkil edərək, onların mütəmadi monitorinqini aparır, nəticələrini araşdırır, əldə olunmuş nailiyyətləri inkişaf etdirir;

3.0.16. Azərbaycan Respublikasının regionlarında elmin inkişafını təmin edir;

3.0.17. öz əməkdaşlarının xarici ölkələrin akademiyalarına, elmi mərkəzlərinə və ali təhsil müəssisələrinə yaradıcılıq ezamiyyətlərinə, xüsusən gənc alim və mütəxəssislərin ixtisasartırmaya göndərilməsini təmin edir;

3.0.18. ali təhsil müəssisələrinin, dövlət və özəl qurumların tərkibində fəaliyyət göstərən elmi müəssisələrlə Akademiyanın elmi və elmi-texniki əməkdaşlığını təşkil edir, sahələrarası elmi tədqiqat işlərini genişləndirir, inkişaf etdirir;

3.0.19. elmi tədqiqat müəssisələrində aparılan tədqiqatların vahid mərkəzdən idarə olunması modelini tətbiq edir, elmi tədqiqatlar üzrə ekspertizanın aparılması, səmərəliliyin qiymətləndirilməsi üzrə tədbirləri həyata keçirir;

3.0.20. nazirliklərin, dövlət komitələrinin, təsərrüfat subyektlərinin, özəl qurumların və ali təhsil müəssisələrinin nəzdindəki elmi tədqiqat müəssisələrinin və laboratoriyaların müvafiq dövr üçün elmi fəaliyyətini təhlil edir, qiymətləndirir, istiqamətləndirir və tövsiyələr verir;

3.0.21. işçilərinin sosial-məişət problemləri ilə bağlı məsələləri araşdırır, onların həllinə yönəlmiş tədbirlər görür;

3.0.22. Akademiyanın strukturuna daxil olan qurumların işçilərinin ərizə, şikayət və təkliflərinə baxılmasını və onların Akademiyanın vəzifəli şəxsləri tərəfindən qəbulunu təmin edir, daxil olmuş müraciətlərə "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, o cümlədən yaradılmış internet saytı vasitəsi ilə cavab verir;

3.0.23. yerli və xarici elmi müəssisələrin Akademiya ilə bağlı fəaliyyətlərini əlaqələndirir;

3.0.24. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yenilənməsini təmin edir;

3.0.25. Azərbaycan Respublikasının elmi-texniki inkişafının kompleks proqnozlarını işləyib hazırlayır;

3.0.26. tətbiqi elmi tədqiqatların aparılması, dövlət elmi-texniki tapşırıqlarının yerinə yetirilməsi, yeni texnika nümunələrinin və yeni texnologiyaların yaradılması üzrə təcrübə-konstruktor işlərini və innovasiya siyasətini həyata keçirir;

3.0.27. Akademiyanın həqiqi, müxbir, xarici və fəxri üzvlərinin seçkilərini təşkil edir;

3.0.28. texnoparkların inkişafında elmin dəstəyini təmin edir;

3.0.29. elmdə inhisarçılıq imkanlarını istisna edən azad rəqabət və müsabiqə formalarına üstünlük verir, yaradıcılıq potensialının tam aşkarlanması üçün şəraitin yaradılmasını təmin edir;

3.0.30. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında"

Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xarici ölkələrin elmi idarələri ilə elmi əlaqələr yaradır, bu əlaqələri inkişaf etdirir, beynəlxalq elmi konfrans, konqres, simpozium və qurultaylarda iştirak edir;

3.0.31. elm sahəsində dövlət sirrini, konfidensial məlumatları qoruyur, elm sahəsinə aid obyektlərin mülki müdafiəsi sahəsində tədbirlər həyata keçirir;

3.0.32. dövlət qurumlarına onların qanuni sorğusu əsasında zəruri sənədlər və materiallar təqdim edir.

3.0.33. bu Nizamnaməyə uyğun olaraq digər vəzifələri yerinə yetirir.

## 4. Akademiyanın hüquqları

4.0. Akademiyanın öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. elm sahəsinə aid hüquqi aktların layihələrini və həmin sahədə qanunvericiliyi təkmilləşdirmək məqsədi ilə təklifləri hazırlamaq;

4.0.2. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə elmin inkişafı ilə bağlı zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.3. tabeliyində olan elmi müəssisələr tərəfindən icrası məcburi olan qərar və sərəncamlar vermək, onların icrasına nəzarət etmək;

4.0.4. elm, mədəniyyət və incəsənət xadimlərinin əlyazmalarını, tarixi əhəmiyyət kəsb edən digər materialları dövlət arxivlərinə təhvil vermədən Akademiyanın Mərkəzi Elmi Arxivində, elmi müəssisələrinin arxivlərində, Akademiyanın Mərkəzi Elmi Kitabxanasında saxlamaq;

4.0.5. Akademiyanın strukturuna daxil olan qurumlarda Akademiyanın Rəyasət Heyətinin qərarlarının və Akademiya prezidentinin əmr və sərəncamlarının icrası, kargüzarlıq işinin təşkili, ərizə, şikayət və təkliflərə baxılması, həmçinin əmək və icra intizamına riayət olunması vəziyyətini yoxlamaq;

4.0.6. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.0.7. beynəlxalq elmi laboratoriyalar təsis etmək;

4.0.8. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.0.9. "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Akademiyanın strukturuna daxil olan qurumların daxili auditini həyata keçirmək;

4.0.10. nəşriyyat-poliqrafiya fəaliyyətini həyata keçirən müasir tipli nəşriyyat qurumu təsis etmək;

4.0.11. Akademiyanın Rəyasət Heyətinin aparatının və Akademiyanın strukturuna daxil olan qurumların işçilərinin əmək və sosial-məişət şəraitinin, maddi təminatının yaxşılaşdırılması və sağlamlığının qorunması barədə təkliflər vermək;

4.0.12. istifadəsində olan dövlət əmlakı barəsində hüquqlar həyata keçirmək;

4.0.13. Akademiyanın ehtiyacları üçün əsaslı tikinti aparılması, bina və tikililərin yenidən qurulması və təmiri ilə bağlı işlər görmək;

4.0.14. Azərbaycan Respublikasında fundamental və tətbiqi elmi tədqiqatları əlaqələndirmək məqsədi ilə Elmi Tədqiqat

İşlərini Əlaqələndirmə Şurası, problem şuraları, komitələr, komissiyalar yaratmaq;

4.0.15. dövlət əhəmiyyətli elmi, elmi-texniki, iqtisadi proqramların və innovasiya layihələrinin, xüsusilə təbii ehtiyatların mənimsənilməsi üzrə kontraktların dövlət ekspertizasında iştirak etmək;

4.0.16. elmi-texniki inkişaf məsələləri üzrə dövlət vəzifələrinin həyata keçirilməsi üçün tövsiyələrin hazırlanmasında dövlət orqanları ilə əməkdaşlıq etmək;

4.0.17. elmtutumlu təsərrüfat sahələrinin yaradılmasına dair dövlət qarşısında vəsatət qaldırmaq;

4.0.18. təcrübə-konstruktor, elmi layihələndirmə işlərini həyata keçirmək, ekspedisiyalar təşkil etmək;

4.0.19. ödənişli əsaslarla kadr hazırlamaq;

4.0.20. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təhsil müəssisələri və elm-təhsil mərkəzləri təsis etmək;

4.0.21. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ali təhsil, o cümlədən magistratura, doktorantura və dissertantlıq yolu ilə ixtisaslı kadrlar hazırlamaq;

4.0.22. ictimai prosesləri, sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafı, habelə ekoloji vəziyyəti müstəqil qiymətləndirmək və bu məsələlərə dair təkliflər hazırlamaq;

4.0.23. Akademiyada və digər elmi təşkilatlarda aparılan elmi tədqiqatların nəticələrini yaymaq və təbliğ etmək məqsədi ilə elmi əsərlər, jurnallar, toplular, ensiklopediyalar, Akademiyanın fəaliyyətini əks etdirən qəzet və elmi-kütləvi jurnallar nəşr etmək;

4.0.24. elmi nailiyyətlərin tətbiqi yolu ilə məhsul istehsalı, elmi-texniki xidmətlər göstərilməsi və innovasiya fəaliyyətinin digər formalarının inkişafı üçün müəssisələrin yaradılmasında hüquqi və fiziki şəxslərə köməklik göstərmək;

4.0.25. idarəetmə proseslərində müasir telekommunikasiya və informasiya texnologiyaları vasitələrindən geniş istifadə etmək;

4.0.26. elm sahəsinə sərmayə qoyuluşu üçün əlverişli mühitin yaradılması məqsədi ilə tədbirlər işləyib hazırlamaq və həyata keçirmək;

4.0.27. elmi problemlərin müzakirəsinə və elmi tədqiqat işlərinin əlaqələndirilməsi məsələlərinə həsr edilmiş elmi sessiyalar, konfranslar, simpoziumlar, konqreslər və qurultaylar keçirmək;

4.0.28. dünyanın müxtəlif ölkələrində yaşayan görkəmli azərbaycanlı alimlər daxil olmaqla, Azərbaycan alimlərinin qurultayını keçirmək, onların fəaliyyətini əlaqələndirmək və inkişaf etdirmək;

4.0.29. elmin nailiyyətlərini təbliğ etmək, onun nüfuzunu artırmaq, elmi işçilərin sosial vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görmək, bu məsələlərin həlli ilə bağlı aidiyyəti dövlət orqanları qarşısında vəsatət qaldırmaq;

4.0.30. bu Nizamnaməyə uyğun olaraq digər hüquqları həyata keçirmək.

## 5. Akademiyanın həqiqi, müxbir, xarici və fəxri üzvləri

5.1. Akademiyanın üzvləri gizli səsvermə yolu ilə bu Nizamnaməyə uyğun olaraq seçilmiş həqiqi, müxbir, xarici və fəxri üzvlərdən ibarətdir.

5.2. Akademiyanın həqiqi üzvləri (akademikləri) Akademiyanın Azərbaycan Respublikasının vətəndaşı olan, elm istiqamətləri üzrə geniş tədqiqatlar aparan, elmi yeni biliklərlə zənginləşdirən, tanınmış elmi məktəblər yaradan müxbir üzvləri sırasından seçilirlər.

5.3. Akademiyanın müxbir üzvləri elmin inkişafında görkəmli xidmətləri olan, onu dəyərli tədqiqatları ilə zənginləşdirən Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilirlər.

5.4. Akademiyanın xarici üzvləri xarici dövlətlərin dünya və Azərbaycan elminə dəyərli töhfələr verən alimləri sırasından seçilirlər.

5.5. Akademiyanın fəxri üzvləri dünya miqyasında dövlət, ictimai, elm və mədəniyyət xadimləri kimi tanınmış Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər sırasından seçilirlər. Akademiyanın fəxri üzvü Akademiyanın ümumi yığıncağı ilə yanaşı, Rəyasət Heyətində də seçilə bilər.

5.6. Akademiyanın həqiqi və müxbir üzvləri ömürlük seçilirlər.

5.7. Akademiyanın həqiqi və ya müxbir üzvü Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda, Akademiyanın Rəyasət Heyətinin və həmin üzvün razılığı əsasında Akademiyanın xarici üzvü hesab edilir.

5.8. Akademiyanın həqiqi və müxbir üzvlərinin sayını Akademiyanın ümumi yığıncağının qərarına əsasən Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

5.9. Akademiya üzvlərinin başlıca vəzifəsi şəxsən apardıqları tədqiqatlarla və elmi tədqiqatlara rəhbərlik yolu ilə elmi yeni nailiyyətlərlə zənginləşdirməkdir.

5.10. Akademiyanın üzvləri Akademiyanın vəzifələrinin yerinə yetirilməsində fəal çalışmağa və bu Nizamnaməyə əməl etməyə borcludur.

5.11. Akademiyanın üzvləri elmi nailiyyətlərin tətbiqinə kömək etməli, elmi kadrlar hazırlamalı, Rəyasət Heyətinin və tərkibində olduqları elmi bölmənin elmi-təşkilati tapşırıqlarını

yerinə yetirməli, Akademiyanın və tərkibində olduqları elmi bölmənin ümumi yığıncaqlarında iştirak etməlidirlər.

5.12. Akademiyanın üzvləri Akademiyanın Rəyasət Heyətinin və tərkibində olduqları elmi bölmənin qərarı ilə şəxsən apardıqları və ya rəhbərlik etdikləri elmi işləri yerinə yetirmək üçün onlara zəruri şərait yaradılmasını tələb etmək hüququna malikdirlər.

5.13. Akademiyanın hər bir üzvü Akademiyanın elmi bölmələrindən birinin tərkibindədir.

5.14. Akademiyanın üzvü, başqa elmi bölmənin iclasında iştirak edən bölmə üzvlərinin gizli səsvermə və üçdə iki səs çoxluğu əsasında, həmin bölmənin işində iştirak edə və bölmə üzvlərinin bütün hüquqlarından (seçkilərdə səsvermə hüququ istisna olmaqla) istifadə edə bilər.

5.15. Akademiyanın üzvləri Akademiyanın Rəyasət Heyətinin və tərkibində olduqları elmi bölmənin bürosunun müzakirəsinə elmi və elmi-təşkilati məsələlər təqdim etmək, belə məsələləri Rəyasət Heyəti və elmi bölmələrin büroları vasitəsi ilə Akademiyanın və elmi bölmənin ümumi yığıncaqlarının müzakirəsinə çıxarmaq hüququna malikdirlər.

5.16. Akademiyanın üzvü bu Nizamnaməyə uyğun olaraq, vəzifələrini yerinə yetirmədikdə Akademiyanın Rəyasət Heyəti onun məsələsini fərdi qaydada müzakirə edir və Akademiyanın ümumi yığıncağına təqdim edir.

5.17. Akademiyanın xarici üzvü Akademiyanın ümumi yığıncağı və üzvü olduğu elmi bölmənin ümumi yığıncağının işində məşvərətçi səs hüququ ilə iştirak edir.

5.18. Akademiyanın xarici üzvü, üzvü olduğu elmi bölmədə elmi tədqiqatların inkişafı və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi təkliflərini Akademiyanın Rəyasət Heyətinə təqdim edir.

5.19. Akademiyanın həqiqi, müxbir, xarici və fəxri üzvlərinin seçkiləri üç ildə bir dəfədən az olmayaraq keçirilir. Akademiyanın həqiqi, müxbir, xarici və fəxri üzvləri gizli səsvermə yolu və Akademiyanın ümumi yığıncağında iştirak edən həqiqi və müxbir üzvlərinin üçdə iki səs çoxluğu ilə seçilir.

5.20. Akademiya üzvünün yeri vaxtından əvvəl boşalarsa, boş yerlərə Akademiyanın ümumi yığıncağında seçkilər keçirilir. Akademiya üzvlüyünə boş yerlərə seçkilər Akademiya üzvlərinin növbəti seçkilərinə 90 təqvim günündən az müddət qalarsa, keçirilmir.

## 6. Akademiyanın strukturu və fəaliyyətinin təşkili

6.1. Akademiyanın Rəyasət Heyətinin aparatı və Akademiyanın strukturuna daxil olan elmi müəssisələr, regional elmi bölmə və mərkəzlər, elmi xidmət, xidmət və sosial xidmət müəssisələri Akademiyanın vahid sistemini təşkil edir.

6.2. Akademiyanın strukturu və işçilərinin say həddi Akademiyanın təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunur.

6.3. Akademiya vəzifələrini bilavasitə və tabeliyində olan qurumlar vasitəsi ilə həyata keçirir.

6.4. Akademiyanın ali idarəetmə orqanı Akademiyanın ümumi yığıncağıdır.

6.5. Akademiyanın Rəyasət Heyəti Akademiyanın kollegial icra orqanıdır.

6.6. Akademiyanın ümumi fəaliyyətinə Akademiyanın prezidenti rəhbərlik edir.

6.7. Akademiyanın prezidenti Akademiyanın ümumi yığıncağında 5 il müddətinə seçilir və Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

## 7. Akademiyanın ümumi yığıncağı

7.1. Akademiyanın ali idarəetmə orqanı onun həqiqi, müxbir və xarici üzvlərindən ibarət ümumi yığıncağıdır.

7.2. Akademiyanın üzvləri Akademiyanın ümumi yığıncağında və üzvü olduqları bölmələrin ümumi yığıncağında iştirak edirlər.

7.3. Akademiyanın həqiqi üzvlərinin seçkiləri üzrə səsvermədə Akademiyanın ümumi yığıncağında iştirak edən həqiqi üzvləri, Akademiyanın müxbir üzvlərinin seçkiləri üzrə səsvermədə isə Akademiyanın ümumi yığıncağında iştirak edən həqiqi və müxbir üzvləri iştirak edirlər.

7.4. Akademiyanın ümumi yığıncağında Akademiyanın üzvləri ilə yanaşı, elmi müəssisələrindən göndərilmiş elmi əməkdaşlar nümayəndə kimi iştirak edirlər.

7.5. Akademiyanın xarici üzvlərinə Akademiyanın ümumi yığıncağının çağırılması barədə məlumat verilir. Onlar Akademiyanın ümumi yığıncağında məşvərətçi səs hüququ ilə iştirak edirlər.

7.6. Akademiyanın nizamnaməsində dəyişikliklər Akademiyanın ümumi yığıncağında səsvermədə iştirak edən həqiqi və müxbir üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

7.7. Akademiyanın ümumi yığıncağı, Akademiya üzvlərinin və Rəyasət Heyətinin seçkiləri zamanı Akademiyanın həqiqi üzvlərinin azı üçdə iki hissəsi, qalan məsələlər üzrə Akademiyanın həqiqi və müxbir üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

7.8. Akademiyanın ümumi yığıncağı baxdığı məsələlərlə bağlı qərarlar qəbul edir.

7.9. Akademiyanın ümumi yığıncağı:

7.9.1. Nizamnamə komissiyanın təqdimatı ilə Akademiyanın Nizamnaməsini və onda edilmiş dəyişiklikləri qəbul edir və təsdiq edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

7.9.2. "Azərbaycan Milli Elmlər Akademiyasına seçkilərin təşkili və aparılma qaydası haqqında Əsasnamə"ni və həmin əsasnamədə dəyişiklikləri qəbul edir;

7.9.3. Akademiyanın ümumi yığıncağı tərəfindən seçilmiş Akademiyanın prezidentini həmin vəzifədə təsdiq edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

7.9.4. Akademiyanın Rəyasət Heyətinin təklifi ilə Akademiyanın elmi bölmələrinin və elmi mərkəzlərinin yaradılması, yenidən təşkili və ləğvi barədə qərar qəbul edir. Bu qərar Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir;

7.9.5. Akademiyanın Rəyasət Heyətinin təklifi ilə elmi, elmi xidmət, xidmət, təhsil və sosial xidmət müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə qərar qəbul edir;

7.9.6. ölkədə fundamental elmi tədqiqatların əsas istiqamətlərini müəyyən edir;

7.9.7. Azərbaycan Respublikasında əldə olunmuş elmi nəticələri və Akademiyanın Rəyasət Heyətinin elmi-təşkilati fəaliyyəti haqqında illik hesabatı müzakirə və təsdiq edir;

7.9.8. Akademiyanın elmi bölmələrinin, regional elmi bölmələrinin, regional elmi mərkəzlərinin, elmi müəssisələrinin və ayrı-ayrı alimlərin əldə etdiyi elmi nəticələrə və yeni elmi istiqamətlərə həsr olunmuş məruzələrini dinləyir;

7.9.9. Azərbaycan Respublikasında fundamental və tətbiqi elmi tədqiqatların həyata keçirilməsinə dair təşkilati məsələləri həll edir;

7.9.10. növbəti maliyyə ili üçün Akademiyanın büdcə maliyyələşdirilməsi planının istiqamətlərini və prioritetlərini müəyyən edir;

7.9.11. Akademiyanın həqiqi, müxbir, xarici və fəxri üzvlərini seçir;

7.9.12. Akademiyanın Rəyasət Heyəti üzvlərinin sayını və tərkibini müəyyən edir;

7.9.13. Akademiyanın prezidentini, vitse-prezidentlərini, akademik-katibini, Rəyasət Heyətinin digər üzvlərini ümumi yığıncaqda iştirak edən üzvlərinin üçdə iki səs çoxluğu ilə seçir və elmi bölmələrin akademik-katiblərini Rəyasət Heyətinin üzvləri kimi təsdiq edir;

7.9.14. Akademiyanın Nizamnamə komissiyasının sədrini seçir;

7.9.15. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun illik fəaliyyət planını təsdiq edir;

7.9.16. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun illik fəaliyyətinin nəticələrini müzakirə edir.

7.10. Akademiyanın həqiqi, müxbir, xarici və fəxri üzvləri bu Nizamnaməyə uyğun olaraq öz vəzifələrini yerinə yetirmədikdə onların fəaliyyəti Akademiyanın ümumi yığıncağında müzakirə olunur və nəticəyə dair qərar qəbul edilir.

7.11. Akademiyanın ümumi yığıncağı azı ildə bir dəfə çağırılır.

7.12. Akademiyanın illik ümumi yığıncağı hər il aprel ayında keçirilir.

7.13. Akademiyanın Rəyasət Heyəti Akademiyanın ümumi yığıncağının keçirilməsinə azı 60 təqvim günü qalmış ümumi yığıncağın keçirilmə vaxtını elan edir.

7.14. Akademiyanın üzvləri, bölmə büroları, elmi müəssisələrin elmi şuraları tərəfindən Akademiyanın ümumi yığıncağında müzakirə olunacaq məsələlərə dair təkliflər, Akademiyanın ümumi yığıncağının keçiriləcəyi gündən azı 30 təqvim günü əvvəl Akademiyanın Rəyasət Heyətinə təqdim edilir.

7.15. Akademiyanın ümumi yığıncağının gündəliyi, təqdim olunmuş təkliflər nəzərə alınmaqla, Rəyasət Heyəti tərəfindən tərtib olunur.

7.16. Akademiyanın ümumi yığıncağında bu və ya digər şəxslə bağlı məsələlər gizli səsvermə yolu ilə həll edilir.

## 8. Akademiyanın Rəyasət Heyəti

8.1. Akademiyanın Rəyasət Heyəti Akademiyanın vəzifələrini təmin edən kollegial icra orqanıdır.

8.2. Akademiyanın Rəyasət Heyəti Akademiyanın prezidentindən, vitse-prezidentlərindən, akademik-katibindən, elmi bölmələrin akademik-katiblərindən, regional elmi bölmələrin sədrlərindən və Akademiyanın digər həqiqi üzvlərindən ibarətdir.

8.3. Akademiyanın Rəyasət Heyətinin fəaliyyətinə rəhbərliyi və iclaslarına sədrliyi Akademiyanın prezidenti həyata keçirir.

8.4. Akademiyanın Rəyasət Heyətinin seçkiləri Akademiyanın ümumi yığıncağında Akademiyanın prezidentinin seçilməsi ilə başlanır.

8.5. Akademiyanın Rəyasət Heyətinin tərkibinin formalaşdırılması Akademiyanın prezidentinin təqdimatı ilə həyata keçirilir.

8.6. Akademiyanın Rəyasət Heyətinin bütün üzvlərinin seçkiləri beş ildən bir keçirilir.

8.7. Akademiyanın Rəyasət Heyəti hər dəfə yenidən seçilənədək Akademiyanın ümumi yığıncağına ötən 5 il ərzindəki fəaliyyəti barədə hesabat verir.

8.8. Akademiyanın Rəyasət Heyəti Akademiyanın ümumi yığıncağının qərarlarını icra edir və Akademiyanın ümumi yığıncağının sessiyaları arasındakı dövrdə Akademiyanın bütün fəaliyyətini idarə edir.

8.9. Akademiyanın Rəyasət Heyəti hər il elmi tədqiqatların nəticələri və öz fəaliyyəti haqqında Akademiyanın ümumi yığıncağına hesabat verir.

8.10. Akademiyanın Rəyasət Heyətinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Akademiyanın Rəyasət Heyətinin qərarları onun iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul olunur.

8.11. Akademiyanın ümumi yığıncağının Akademiyanın Rəyasət Heyətinin bütün üzvlərinin yenidən seçilməsi barədə əsaslandırılmış qərar qəbul etmək səlahiyyəti vardır.

8.12. Akademiyanın Rəyasət Heyətinin üzvü üzvlükdən çıxdığı halda, Akademiyanın ümumi yığıncağı Rəyasət Heyətinin növbəti seçkilərinə qədər qalan müddət üçün (90 təqvim günündən az olmamaqla) Akademiyanın Rəyasət Heyətinin yeni üzvünü seçir.

8.13. Akademiyanın vitse-prezidentləri Akademiyanın ümumi yığıncağında səsvermədə iştirak edən Akademiyanın həqiqi üzvlərinin üçdə iki səs çoxluğu və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilirlər.

8.14. Akademiyanın vitse-prezidentləri, akademik-katibi və Rəyasət Heyətinin digər üzvləri Akademiya prezidentinin təqdimatı ilə Akademiyanın Rəyasət Heyəti tərəfindən təsdiq edilir.

8.15. Akademiyanın vitse-prezidenti:

8.15.1. təmsil etdiyi elmi bölmənin fəaliyyətinə rəhbərlik edir, ümumi yığıncağının işini təşkil edir;

8.15.2. təmsil etdiyi elmi bölmə üzrə hüquqi aktların icrasını təmin edir, bu bölmənin işini Akademiyanın prezidenti ilə əlaqələndirir;

8.15.3. təmsil etdiyi elmi bölmədə müzakirə edilmiş və haqqında qərar qəbul edilmiş məsələləri Akademiyanın prezidentinə və Rəyasət Heyətinə məruzə edir;

8.15.4. Azərbaycan Respublikasında və dünyada elmin inkişaf vəziyyətini təhlil edir, proqnozlaşdırır və bu barədə Akademiyanın Prezidentinə məruzə edir, Akademiyanın ümumi yığıncağı və Rəyasət Heyəti qarşısında vəsatət qaldırır.

8.16. Akademiyanın akademik-katibi Akademiyanın prezidentinin təqdimatı ilə Akademiyanın ümumi yığıncağında səsvermədə iştirak edən Akademiyanın həqiqi üzvlərinin sırasından üçdə iki səs çoxluğu və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

8.17. Akademiyanın akademik-katibi vəzifəsinə görə Akademiyanın Rəyasət Heyətinin tərkibinə daxil edilir.

8.18. Akademiyanın akademik-katibi öz fəaliyyətini rəhbərlik etdiyi akademik-katiblik vasitəsi ilə həyata keçirir.

8.19. Akademiyanın Rəyasət Heyəti:

8.19.1. Akademiyanın ümumi yığıncağının iclaslarını çağırır və keçirir;

8.19.2. Akademiyanın elm istiqamətlərinə müvafiq aparılan uzunmüddətli elmi tədqiqat işlərinin planını təsdiq edir;

8.19.3. Akademiyanın elmi müəssisələrinin, sahə institutlarının, ali təhsil müəssisələrinin və digər elmi təşkilatların apardıqları fundamental və tətbiqi tədqiqatları əlaqələndirir və istiqamətləndirir;

8.19.4. Akademiya müəssisələrinin fəaliyyət istiqamətlərini və ixtisaslaşmasını müəyyən edir;

8.19.5. fundamental və tətbiqi problemlər, habelə regional məsələlər üzrə elmi şuralar təşkil edir;

8.19.6. Akademiyanın Nizamnamə komissiyası sədrinin təqdimatı ilə həmin komissiyanın tərkibini təsdiq edir;

8.19.7. Akademiyanın müşavirini təyin edir;

8.19.8. "Azərbaycan Milli Elmlər Akademiyasının bayrağı haqqında Əsasnamə"ni təsdiq edir;

8.19.9. "Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin aparatının Əsasnaməsi"ni təsdiq edir;

8.19.10. "Azərbaycan Milli Elmlər Akademiyasının elmi bölməsi haqqında Əsasnamə"ni təsdiq edir;

8.19.11. Akademiyanın regional elmi bölmələrinin rəyasət heyətlərinin tərkibini təsdiq edir;

8.19.12. Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək üçün aşağıdakıları təsdiq edir:

8.19.12.1 Azərbaycan Respublikasında fundamental və tətbiqi elmlərin vəziyyəti və Azərbaycan alimlərinin əldə etdiyi mühüm elmi nəticələr haqqında illik məruzəni;

8.19.12.2. öz elmi-təşkilati və maliyyə-təsərrüfat fəaliyyəti haqqında illik hesabatı;

8.19.12.3. fundamental və tətbiqi elmlərin inkişafının prioritet istiqamətlərinə, eləcə də axtarış tədqiqatlarının istiqamətlərinə dair təklifləri;

8.19.13. Akademiyanın maliyyələşdirilməsi üçün dövlət büdcəsinin tərtibinə dair təkliflər hazırlayır;

8.19.14. Akademiyanın ştat cədvəlini təsdiq edir;

8.19.15. Akademiyada əqli mülkiyyət hüquqlarının, dövlət, xidməti və kommersiya sirlərinin qorunmasını təmin edir;

8.19.16. qurultayların, elmi sessiyaların, konfransların, simpoziumların, elmi festivalların və forumların keçirilməsi ilə bağlı məsələləri həll edir;

8.19.17. Akademiyanın nəşriyyat-poliqrafiya qurumunun fəaliyyətinə rəhbərlik edir, onun fəaliyyət planlarını təsdiq və onların yerinə yetirilməsinə nəzarət edir;

8.19.18. Akademiyanın jurnallarının təsis edilməsi, fəaliyyətinin dayandırılması və ya xitamı barədə qərarlar qəbul edir, jurnalların baş redaktorlarını təyin və redaksiya heyətlərinin tərkibini təsdiq edir;

8.19.19. Akademiyanın beynəlxalq elmi əlaqələrini təmin edir;

8.19.20. "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə təltif edir;

8.19.21. böyük elmi əsərlər, ixtira və kəşflərə görə görkəmli alimlərin adına mükafatlar, habelə gənc alimlər və Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsilalanlar üçün ən yaxşı elmi işlərinə görə adlı mükafatlar təsis edir və mükafatlandırır;

8.19.22. elmi kadrların hazırlanmasını və Akademiya əməkdaşlarının əlavə təhsilini təşkil edir;

8.19.23. elmi tədqiqat işlərinin nəticələrinin tətbiqi üçün təkliflər verir;

8.19.24. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, elmi-texniki siyasət üzrə normativ hüquqi aktların hazırlanmasında iştirak edir;

8.19.25. Akademiyanın fəaliyyəti haqqında illik hesabatı Akademiyanın ümumi yığıncağının müzakirəsinə təqdim edir;

8.19.26. üzvləri arasında vəzifə bölgüsü aparır;

8.19.27. bu Nizamnaməyə uyğun olaraq, səlahiyyətlərinə aid kadr məsələlərini həll edir;

8.19.28. Akademiyanın üzvləri, vəzifəli şəxsləri, elmi, elmi xidmət, təhsil, xidmət və sosial xidmət müəssisələri tərəfindən bu Nizamnaməyə əməl olunmasına nəzarət edir;

8.19.29. bu Nizamnamə ilə səlahiyyətinə aid edilən digər məsələləri həll edir.

8.20. Akademiyanın Rəyasət Heyəti baxdığı məsələlərlə bağlı qərarlar qəbul edir.

8.21. Akademiyanın Rəyasət Heyətinin nəzdində elmi şuralar, komissiyalar, cəmiyyətlər və digər məşvərətçi orqanlar yaradıla bilər. Rəyasət Heyəti bu orqanların sədrlərini təyin və onların tərkibini təsdiq edir.

8.22. Akademiyanın Rəyasət Heyəti Akademiyanın maliyyə vəsaitlərinin baş sərəncamçısıdır. O, Akademiyanın illik büdcəsini təsdiq edir, dövlət büdcəsindən ayrılan və başqa mənbələrdən daxil olan vəsaiti elmi tədqiqat işləri planına uyğun olaraq Akademiyanın elmi, elmi xidmət, təhsil, xidmət və sosial xidmət müəssisələri arasında bölüşdürür, həmin vəsaitin təyinatı üzrə xərclənməsinə nəzarət edir.

8.23. “Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin aparatının Əsasnaməsi” Akademiyanın Rəyasət Heyəti tərəfindən təsdiq edilir.

8.24. Akademiyanın Rəyasət Heyətinin aparatının strukturuna daxil olan idarə, şöbə və bölmələrin yaradılması, yenidən təşkili və ləğvi Akademiyanın Rəyasət Heyətinin qərarı əsasında həyata keçirilir.

## 9. Akademiyanın prezidenti

9.1. Akademiyanın fəaliyyətinə ümumi rəhbərliyi Akademiyanın prezidenti həyata keçirir.

9.2. Akademiyanın prezidenti Akademiyanın ümumi yığıncağında Akademiyanın həqiqi üzvləri sırasından seçilir və Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

9.3. Akademiyanın prezidenti Akademiyanın ümumi yığıncağında səsvermədə iştirak edən həqiqi üzvlərinin üçdə iki səs çoxluğu və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

9.4. Akademiyanın Prezidenti Akademiyanın vəzifələrinin icrasına görə şəxsən məsuliyyət daşıyır.

9.5. Akademiyanın prezidenti:

9.5.1. Akademiyanın ümumi fəaliyyətini təşkil edir;

9.5.2. Akademiyanın Rəyasət Heyətinin fəaliyyətinə rəhbərlik edir;

9.5.3. Akademiyanın ümumi yığıncağının və Rəyasət Heyətinin iclaslarına sədrlik edir;

9.5.4. Akademiyanın əmlakından istifadə və maliyyə vəsaitləri barədə sərəncam verir;

9.5.5. Akademiyanı təmsil edir, müqavilələr bağlayır, etibarnamələr verir və digər qanuni hüquqi hərəkətləri həyata keçirir;

9.5.6. dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitinin Akademiyanın elmi, elmi xidmət, təhsil, xidmət və sosial xidmət müəssisələri arasında Akademiyanın Rəyasət Heyəti tərəfindən müəyyən edilmiş bölgüsünü təsdiq edir;

9.5.7. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xarici ölkələrin elmi müəssisələri və digər təşkilatları, habelə beynəlxalq təşkilatlarla danışıqlar aparır;

9.5.8. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin verdiyi səlahiyyətlər əsasında elmi və elmi-texniki məsələlərə dair beynəlxalq müqavilələr imzalayır;

9.5.9. Akademiyanın Rəyasət Heyəti aparatının işçiləri və təsdiq olunmuş nomenklatur çərçivəsində digər işçilərlə əmək müqavilələri bağlayır, işçilər barəsində mükafatlandırma, həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

9.5.10. Akademiyanın Rəyasət Heyətinin aparatı və Akademiyanın tabeliyində olan təşkilatlar üçün icrası məcburi olan əmr və sərəncamlar verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

9.5.11. elmin ayrı-ayrı sahələrinin inkişafı, monitorinqlərin aparılması, strateji fəaliyyət proqramlarının hazırlanması məqsədi ilə mütəxəssislərdən ibarət işçi qrupları, eləcə də koordinasiya və idarəetmə şuraları yaradır;

9.5.12. elm sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı təklifləri və normativ hüquqi aktların layihələrini Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir;

9.5.13. bu Nizamnaməyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

9.6. Akademiyanın prezidenti səlahiyyətlərinin müvəqqəti icrasını vitse-prezidentlərdən birinə tapşıra bilər.

## 10. Akademiyanın elmi bölməsi

10.1. Akademiyanın elmi bölməsi elmin müvafiq sahəsi üzrə seçilmiş Akademiya üzvlərini və Akademiyanın tabeliyində olan elmi və elmi xidmət müəssisələrinin digər elmi işçilərini və mütəxəssislərini birləşdirən əsas elmi və elmi-təşkilati mərkəzdir.

10.2. Akademiyanın aşağıdakı elmi bölmələri var:

10.2.1. Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi;

10.2.2. Kimya Elmləri Bölməsi;

10.2.3. Yer Elmləri Bölməsi;

10.2.4. Biologiya və Tibb Elmləri Bölməsi;

10.2.5. Humanitar Elmlər Bölməsi;

10.2.6. İctimai Elmlər Bölməsi;

10.2.7. Aqrar Elmlər Bölməsi;

10.2.8. Naxçıvan Bölməsi;

10.2.9. Gəncə Bölməsi.

10.3. Elmi bölmənin məqsəd və vəzifələri, ümumi yığıncağı, bölmə bürosu, bölmənin akademik-katibinin səlahiyyətləri və digər məsələləri ilə bağlı müddəalar, elmi bölmənin ümumi yığıncağında qəbul olunmuş və Akademiyanın Rəyasət Heyəti tərəfindən təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının elmi bölməsi haqqında Əsasnamə" ilə müəyyən edilir.

10.4. Elmi bölmənin akademik-katibi və regional elmi bölmənin sədri müvafiq elmi bölmənin ümumi yığıncağında Akademiyanın həqiqi üzvlərinin sırasından seçilir və Akademiyanın ümumi yığıncağında təsdiqdən sonra Akademiyanın Rəyasət Heyətinə daxil edilir.

10.5. Akademiyanın Rəyasət Heyətinin digər üzvləri elmi bölmələrin və regional elmi bölmələrin ümumi yığıncaqları tərəfindən təqdim edilmiş Akademiyanın həqiqi üzvləri sırasından seçilir.

10.6. Sahə elmi müəssisələrinin və ali təhsil müəssisələrinin vəsatəti ilə elmi bölmə elmi fəaliyyətlə məşğul olan qurumlara elmi-metodik rəhbərliyi öz üzərinə götürə bilər. Akademiyanın strukturuna daxil olmayan idarələrə elmi-metodik rəhbərlik haqqında qərar elmi bölmə bürosunun təqdimatı ilə Akademiyanın Rəyasət Heyəti tərəfindən qəbul edilir.

10.7. Elmi bölmə:

10.7.1. elmin müvafiq sahələrində fundamental və tətbiqi tədqiqatların istiqamətlərini müəyyənləşdirir, onların əlaqələndirilməsini təmin edir;

10.7.2. tərkibində birləşən elmi müəssisələrə elmi-metodik və elmi-təşkilati rəhbərliyi həyata keçirir, onların maddi və elmi bazalarının möhkəmləndirilməsinə və kadr heyətinin inkişafına yardım edir;

10.7.3. nəzdində olan problem şuralarının, komissiyaların, komitələrin, cəmiyyətlərin işinə rəhbərlik edir, ali təhsil müəssisələrinin və alimlərin elmi əməkdaşlığını möhkəmləndirir;

10.7.4. nəzdində olan elmi müəssisələrin apardıqları elmi tədqiqatların əlaqələndirilməsini həyata keçirir;

10.7.5. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq beynəl-

xalq elmi əlaqələri inkişaf etdirir, Azərbaycan Respublikasının sosial-iqtisadi və mədəni inkişafına dair təkliflər hazırlayır.

10.8. Elmi bölmənin ali idarəetmə orqanı bu bölmədə birləşən Akademiya üzvlərindən və Akademiyanın elmi müəssisələrindən nümayəndə göndərilmiş elmi əməkdaşlardan ibarət ümumi yığıncaqdır. Elmi bölmənin ümumi yığıncağına nümayəndə göndərilmiş elmi əməkdaşlar ümumi yığıncağda məşvərətçi səs hüququ ilə iştirak edirlər.

10.9. Akademiya üzvlərinin seçkiləri istisna olunmaqla, elmi bölmənin ümumi yığıncağı, Akademiyanın həmin elmi bölmədəki həqiqi və müxbir üzvlərinin yarıdan çoxu iştirak etdikdə qərar qəbul etməyə səlahiyyətlidir. Qərarlar sadə səs çoxluğu ilə qəbul olunur.

10.10. Akademiyanın üzvləri seçkilər zamanı həlledici səs hüququndan yalnız üzvü olduqları elmi bölmədə istifadə edə bilərlər.

10.11. Elmi bölmənin akademik-katibi onun ümumi yığıncağında Akademiyanın həqiqi üzvləri sırasından gizli səsvermə yolu ilə 5 il müddətinə üçdə iki səs çoxluğu ilə seçilir və Akademiyanın ümumi yığıncağı tərəfindən təsdiq edilir.

10.12. Elmi bölmənin akademik-katibi Akademiyanın ümumi yığıncağının və Rəyasət Heyətinin qərarlarının, Akademiyanın prezidentinin əmr və sərəncamlarının və bu Nizamnamənin tələblərinin elmi bölmə tərəfindən icrasını təmin edir.

10.13. Elmi bölmənin akademik-katibi elmi bölmənin fəaliyyətinə rəhbərlik və büro iclaslarına sədrlik edir, elmi bölmənin fəaliyyətinə aid məsələlər barədə Akademiyanın Rəyasət Heyətində məruzə edir, elmi bölmənin ümumi yığıncağına və Akademiyanın Rəyasət Heyətinə hesabat verir. Elmi bölmənin akademik-katibi elmi bölmənin fəaliyyətinə görə cavabdehdir.

10.14. Elmi bölmənin ümumi yığıncağının sessiyaları arasındakı dövrdə onun işinə bölmə bürosu rəhbərlik edir. Bölmə bürosuna bölmənin akademik-katibi başçılıq edir.

10.15. Akademik-katibin müavinləri və büro üzvləri elm bölmənin ümumi yığıncağında Akademiyanın həqiqi və müxbir üzvləri sırasından gizli səsvermə yolu ilə 5 il müddətinə üçdə iki səs çoxluğu ilə seçilir və Akademiyanın Rəyasət Heyəti tərəfindən təsdiq olunur.

10.16. Elmi bölmə bürosunun işində bölmənin tərkibinə daxil olan elmi müəssisələrin Akademiyanın üzvü olmayan direktorları məşvərətçi səs hüququ ilə iştirak edirlər.

10.17. Elmi bölmənin bürosu yeni seçkilər ərəfəsində özünün beşillik fəaliyyəti haqqında elmi bölmənin ümumi yığıncağına hesabat verir.

## 11. Akademiyanın regional elmi bölməsi və regional elmi mərkəzi

11.1. Akademiyanın regional elmi bölməsi (bundan sonra – regional elmi bölmə) həmin regionda işləyən Akademiya üzvlərini, bu regionlarda yerləşən institutların və Akademiyanın tabeliyində olan digər elmi müəssisə və təşkilatların elmi əməkdaşlarını birləşdirir.

11.2. Regional elmi bölmə müvafiq regionda yerləşən və Akademiyanın tabeliyində olan elmi müəssisə və təşkilatları Akademiyanın adından idarə edir.

11.3. Regional elmi bölmə mühüm elmi problemlərin, eləcə də regionda və bütövlükdə Azərbaycanda elmin uğurlu inkişafına rəvac verən məsələlərin həll edilməsinə yönəlmiş elmi tədqiqatlar aparır.

11.4. Regional elmi bölmələr aşağıdakılardır:

11.4.1. Naxçıvan Bölməsi;

11.4.2. Gəncə Bölməsi.

11.5. Regional elmi bölmə Akademiyanın strukturuna daxil olan elmi müəssisədir.

11.6. Regional elmi bölmənin ali idarəetmə orqanı onun ümumi yığıncağıdır. Regional elmi bölmənin ümumi yığıncağının tərkibinə Akademiyanın həmin regional elmi bölmədəki bütün üzvləri və bu bölmənin nəzdində olan elmi müəssisələr tərəfindən regional elmi bölmənin ümumi yığıncağına nümayəndə göndərilmiş elmi əməkdaşlar daxildir.

11.7. Regional elmi bölmənin kollegial icra orqanı onun Rəyasət Heyətidir. Regional elmi bölmənin Rəyasət Heyəti regional elmi bölmənin sədrindən, sədr müavinlərindən, elmi katibindən və digər üzvlərindən ibarətdir.

11.8. Regional elmi bölmənin sədri Akademiyanın həqiqi üzvləri sırasından seçilir. Naxçıvan bölməsinin sədri Akademiyanın vitse-prezidenti statusuna malikdir.

11.9. Regional elmi bölmənin Rəyasət Heyətinin bütün üzvləri gizli səsvermə yolu və üçdə iki səs çoxluğu ilə 5 il müddətinə seçilir və Akademiyanın Rəyasət Heyəti tərəfindən təsdiq edilir.

11.10. Regional elmi bölmənin sədri Akademiyanın ümumi yığıncağının və Rəyasət Heyətinin qərarlarının, Akademiyanın prezidentinin əmr və sərəncamlarının və bu Nizamnamənin tələblərinin Regional elmi bölmə tərəfindən icrasını təmin edir.

11.11. Regional elmi bölmənin Rəyasət Heyəti öz fəaliyyəti barədə regional elmi bölmənin ümumi yığıncağına və Akademiyanın Rəyasət Heyətinə hesabat verir. Regional elmi bölmə, bu bölmənin nəzdində elmi müəssisələrin yaradılması,

yenidən təşkili və ləğvi barədə Akademiyanın Rəyasət Heyətinə təkliflər verir.

11.12. Akademiyanın regional elmi mərkəzi həmin regionda işləyən Akademiya üzvlərini, bu regionda yerləşən institutların və Akademiyanın tabeliyində olan digər elmi müəssisələrin elmi əməkdaşlarını birləşdirir.

11.13. Akademiyanın regional elmi mərkəzinin əsas vəzifəsi Akademiyanın bölmələrinin elmi-metodik rəhbərliyi ilə müvafiq ərazilərin təbii sərvətlərini, tarixini, mədəniyyətini və sosial-iqtisadi inkişafının müxtəlif problemlərini öyrənməkdir.

11.14. Akademiyanın regional elmi mərkəzləri aşağıdakılardır:

11.14.1. Şəki Regional Elmi Mərkəz;

11.14.2. Lənkəran Regional Elmi Mərkəz.

11.15. Akademiyanın regional elmi mərkəzi Akademiyanın Rəyasət Heyətinin nəzdindədir.

11.16. Akademiyanın regional elmi mərkəzlərinin başa çatdırdıqları tədqiqatların nəticələri uyğun bölmələrdə müzakirə edilir və onlar hər il elmi-təşkilati fəaliyyətləri barədə Akademiyanın Rəyasət Heyətinə hesabat verirlər.

11.17. Akademiyanın regional elmi mərkəzinin üzvləri gizli səsvermə yolu ilə, elmi şurasının iclasında iştirak edən üzvlərinin üçdə iki səs çoxluğu ilə 5 il müddətinə seçilir və Akademiyanın Rəyasət Heyəti tərəfindən təsdiq edilir.

11.18. Regional elmi mərkəzə onun direktoru rəhbərlik edir. Direktor Akademiyanın ümumi yığıncağının və Rəyasət Heyətinin qərarlarının, Akademiyanın prezidentinin əmr və sərəncamlarının və bu Nizamnamənin tələblərinin regional elmi mərkəz tərəfindən icrasını təmin edir.

11.19. Akademiyanın "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin statusu Akademiyanın regional elmi mərkəzinin statusuna bərabərdir.

## 12. Akademiyanın müəssisələri

12.1. Akademiyanın müəssisələrinə elmi, elmi xidmət, xidmət və sosial xidmət müəssisələri daxildir.

12.2. Akademiyanın institutları, elmi mərkəzləri, regional elmi bölmələri, regional elmi mərkəzləri, muzeyləri, rəsədxanaları, stansiyaları, nəbatat bağları Akademiyanın elmi müəssisələridir.

12.3. Akademiyanın konstruktor və layihə büroları, elmi təcrübə və elmi cihazqayırma müəssisələri, kitabxanaları, arxivləri Akademiyanın elmi xidmət müəssisələridir.

12.4. Akademiyanın nəşriyyatları, poliqrafiya, kitab satışı, nəqliyyat, təchizat, təmir-tikinti və digər təşkilatları Akademiyanın xidmət müəssisələridir.

12.5. Akademiyanın nəzdində olan xəstəxanalar, poliklinikalar, sanatoriyalar, istirahət evləri və mərkəzləri, məktəbəqədər təhsil müəssisələri, alimlər evi, idman-sağlamlıq mərkəzləri Akademiyanın sosial xidmət müəssisələridir.

12.6. Akademiyanın elmi xidmət, xidmət və sosial xidmət müəssisələri Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və bu Nizamnaməyə uyğun olaraq hüquqi şəxslərdir.

12.7. Akademiyanın elmi müəssisələri Akademiyanın müvafiq bölməsinin tərkibində və ya Akademiyanın Rəyasət Heyətinin nəzdində olur.

12.8. Akademiyanın elmi müəssisəsinə onun direktoru başçılıq edir.

12.9. Akademiyanın elmi müəssisəsinin direktoru elmi müəssisənin tərkibində olduğu elmi bölmənin ümumi yığıncağında gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir və Akademiyanın Rəyasət Heyəti tərəfindən təsdiq olunur.

12.10. Akademiyanın Rəyasət Heyəti Akademiyanın elmi müəssisəsinin direktorunu elmi müəssisənin tərkibində olduğu bölmənin təqdimatı ilə vaxtından əvvəl vəzifəsindən azad edə bilər.

12.11. Elmi müəssisə direktorunun səlahiyyətləri, habelə elmi işçilərin hüquq və vəzifələri elmi müəssisənin nizamnaməsi ilə müəyyən olunur.

12.12. Akademiyanın elmi müəssisəsi qeyri-kommersiya qurumu olan hüquqi şəxsdir.

12.13. Akademiyanın elmi müəssisəsinin nizamnaməsi bu Nizamnaməyə uyğun olaraq elmi müəssisənin elmi şurası tərəfindən qəbul edilir.

12.14. Akademiyanın əsas struktur özəyi fundamental tədqiqatlar aparan institutlarıdır. Akademiyanın Rəyasət Heyətinin qərarı ilə elmi və elmi-texniki fəaliyyət göstərən, tətbiqi elmi tədqiqatlar aparan, elmi kadrların hazırlığı ilə məşğul olan digər elmi müəssisələrin statusu Akademiyanın institutlarına bərabər tutulur.

12.15. Akademiyanın institutları Akademiyanın elmi bölmələrində, regional elmi bölmələrində, regional elmi mərkəzlərində birləşir və ya Akademiyanın Rəyasət Heyətinin nəzdində olur.

## 13. Akademiyanın beynəlxalq əməkdaşlığı

13.1. Akademiya "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ölkələrarası elmi mübadilə proqramlarında iştirak edir,

Azərbaycan Respublikasının inkişaf prinsiplərinə və qanunlarına uyğun şəkildə xarici elmi təşkilatları, müəssisələri, elm və təhsil mərkəzlərini, fondları mühüm elmi-texniki problemləri həll etmək üçün ortaq fəaliyyətə cəlb edir.

13.2. Akademiya "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xarici ölkələrin akademiyaları, elmi tədqiqat qurumları, onlara bərabər tutulan elmi mərkəzlərlə ikitərəfli əlaqələrin təşkili üçün müqavilələr, sazişlər, protokollar imzalayır və həmin sənədlərdə əksini tapmış müddəaların həyata keçirilməsini təmin edir.

13.3. Akademiyanın "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, genişmiqyaslı proqramların birgə həyata keçirilməsi nəzərdə tutulduqda və təklif olunan proqramda bir neçə ölkənin elmi qurumları və ya eyni ölkənin ayrı-ayrı qurumları iştirak etdikdə çoxtərəfli əməkdaşlıq müqavilələrini imzalamaq hüququ vardır.

13.4. Akademiya dünya elminə sanballı töhfələr vermiş Azərbaycan alimlərinin digər ölkələrin akademiyalarına, ona bərabər tutulan qurumlarına üzv seçilməsi ilə əlaqədar təkliflər irəli sürə, vəsatət qaldıra bilər.

13.5. Akademiya beynəlxalq təşkilatların və xarici akademiyaların, elm yönlü cəmiyyətlərin, assosiasiyaların üzvü seçilmək hüququna malikdir.

13.6. Akademiya Azərbaycanın görkəmli alimlərini beynəlxalq elmi təşkilatların, akademiyaların, elmi qurumların, mərkəzlərin mükafatlarını almaq, beynəlxalq müsabiqələrdə iştirak etmək üçün təqdim edir.

13.7. Akademiya dünyanın görkəmli alimlərini cəlb etməklə, beynəlxalq simpoziumlar, qurultaylar elmi konfranslar, forumlar, seminarlar, sərgilər və sessiyalar təşkil edir.

13.8. Akademiya rəhbər heyətini və əməkdaşlarını xarici ölkələrə ezam edir.

13.9. Akademiya əməkdaşlarının, xüsusi ilə gənc alimlərin və mütəxəssislərin dünyanın əsas elmi mərkəzlərinə təcrübə keçməyə göndərilməsini təşkil edir.

13.10. Akademiya dünyanın tanınmış alimlərini birgə elmi tədqiqatlar aparmaq, elmi ekspedisiyalarda, beynəlxalq səviyyəli elmi konfranslarda və qurultaylarda iştirak etmək, elmi məruzələrlə çıxış etmək və ya məsləhət vermək üçün Azərbaycan Respublikasına dəvət edir.

13.11. Akademiya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri nəzərə almaqla, beynəlxalq əlaqələrin təşkilində müstəqil qərarlar qəbul edir.

## 14. Akademiyanın əmlakı və maliyyə vəsaiti

14.1. Akademiya istifadəsində olan dövlət əmlakına dair hüquqları "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanının tələbləri nəzərə alınmaqla, həyata keçirir.

Akademiya tabeliyində olan müəssisələr tərəfindən dövlət əmlakının səmərəli istifadəsinə və qorunmasına nəzarət edir.

14.2. Akademiyanın və onun tabeliyində olan müəssisələrin əmlakına yerləşdikləri binalar, istifadələrində olan torpaq sahələri, laboratoriyalar, texnoparklar, cihazlar, avadanlıqlar, nəqliyyat vasitələri və s. daşınar və daşınmaz əmlak aiddir.

14.3. Akademiyanın istifadəsində olan torpaq sahələrindən inkişaf, fəaliyyətinin genişləndirilməsi, elmi tədqiqat xarakterli və istehsalat yönlü müəssisələrin tikilməsi, Akademiya əməkdaşlarının sosial şəraitinin yaxşılaşdırılması üçün istifadə olunur.

14.4. Akademiyanın vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırılır:

14.4.1. dövlət vəsaitləri;

14.4.2. dövlət proqramları və elmi fondların qrantları üzrə aparılan tədqiqatların məqsədli maliyyələşdirilməsi;

14.4.3. “Qrant haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, qrantlar;

14.4.4. innovasiya fəaliyyəti və təsərrüfat müqavilələrindən əldə etdiyi gəlirlər;

14.4.5. Akademiyanın tabeliyində olan elmi müəssisələrin, təcrübə zavodlarının və konstruktor bürolarının fəaliyyət istiqamətlərinə uyğun kommersiya fəaliyyəti nəticəsində əldə edilən gəlirlər;

14.4.6. könüllü ianələr və paylar nəticəsində alınan vəsaitlər;

14.4.7. elmin ayrı-ayrı sahələrində əldə etdiyi nailiyyətləri və innovativ yenilikləri istehsalatın müxtəlif sahələrində təcrübədə tətbiq etməklə əldə etdiyi gəlir;

14.4.8. digər qanuni mənbələr.

14.5. Akademiyanın maliyyələşdirilməsi hər il Azərbaycan Respublikasının dövlət büdcəsində ayrıca sətirlə göstərilir.

14.6. Akademiya yüksəkixtisaslı mütəxəssisləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz fəaliyyətinə cəlb edir, müqavilə şərtlərinə uyğun olaraq onların əməyini ödəyir.

14.7. Akademiya “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik və “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq maliyyə hesabatlarını təqdim edir.

14.8. Akademiyanın maliyyə-iqtisadiyyat idarəsi dövlət büdcəsi vəsaitinin və əldə edilmiş gəlirlərin xərclənməsi haqqında ildə bir dəfə Akademiyanın prezidentinə hesabat verir.

14.9. Akademiyanın prezidenti daxili audit vasitəsi ilə Akademiyanın mühasibat uçotu və maliyyə hesabatlarının düzgünlüyünü və etibarlılığını yoxlaya bilər.

14.10. Akademiya əqli mülkiyyət hüquqlarını, o cümlədən innovasiya fəaliyyətinin nəticələrinə hüquqları həyata keçirir.

14.11. Akademiya elmi, elmi-texniki və innovasiya fəaliyyətinin nəticələrini təsis etdiyi kommersiya təşkilatlarının nizamnamə kapitalına pay şəklində qoya bilər.

14.12. Akademiyanın tabeliyində olan müəssisə və təşkilatlar bu Nizamnamədə və öz nizamnamələrində nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün, Akademiyanın Rəyasət Heyətinin müəyyən etdiyi gəlir gətirən fəaliyyət növləri ilə məşğul ola bilərlər.

## 15. Yekun müddəalar

15.1. Akademiyanın nizamnaməsi və onda dəyişikliklər Akademiyanın ümumi yığıncağında iştirak edən həqiqi və müxbir üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

15.2. Akademiyanın ümumi yığıncağının qərarı ilə qəbul edilmiş nizamnaməsi və onda dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunur.

15.3. Akademiyanın yenidən təşkili və ya ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

"Elm" Redaksiya-Nəşriyyat
və Poliqrafiya Mərkəzi